

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 33 (23.445)

19 fevral 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimlini qəbul edib.

Son illər şəhər nəqliyyatı ilə bağlı görülmüş işlərdən danışan Prezident İlham Əliyev Bakı Nəqliyyat Agentliyinin keçən ili yaxşı nəticələrlə başa vurduğunu, görülən işlərin bir hissəsi ilə şəxsən tanış olduğunu bildirib. Qeyd olunub ki, keçən il agentlik üçün uğurlu olsa da, bu nailiyyətlərlə kifayətlənməməliyik, çünki hələ görüləsi işlər çoxdur.

Dövlətimizin başçısı son beş il ərzində Bakı şəhərinə yüzlərlə yeni avtobusun gətirildiyini, bu avtobusların hamısının dünyanın aparıcı şirkətlərinin istehsalı olduğunu, Bakıda ən müasir texnologiyaların tətbiq edilməsini, nəqliyyat vasitələrinin yüksək standartlara cavab verməsini vurğulayaraq bu məqsədlə dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayrıldığını və hər il orta hesabla 300 avtobusun Bakı Nəqliyyat Agentliyinin xətti ilə gətirildiyini bildirib, agentliyin fəaliyyəti ilə bağlı bir sıra tapşırıqlar verib.

Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli görülən işlər və qarşıda duran vəzifələr haqqında dövlətimizin başçısına məlumat verib.

Prezident İlham Əliyev insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı üçün şəhər nəqliyyatının daha da inkişaf etməsinin vacibliyini vurğulayıb.



## İran və Azərbaycan üzrə İkinci İxtisaslaşmış Turizm Simpoziumu keçirilib



*Fevralın 15-də İran İslam Respublikasının paytaxtı Tehran şəhərində İran və Azərbaycan üzrə İkinci İxtisaslaşmış Turizm Simpoziumu keçirilib.*

Azərbaycanın İrandakı səfirliyi ilə "Aysan Pərvaz" şirkətinin təşkil etdiyi simpoziumda İranda fəaliyyət göstərən turizm şirkətlərinin rəhbərləri, İqtisadi Əməkdaşlıq Təşkilatının əməkdaşları və media nümayəndələri iştirak ediblər.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev, İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə və Azərbaycan Respublikasının İran İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bünyad Hüseynov çıxış edərək simpoziumun əhəmiyyətindən, hər iki ölkə arasında turizmin inkişafı sahəsində görülən işlərdən danışıblar.

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov çıxış edərək muxtar respublikanın turizm potensialı haqqında simpozium iştirakçılarına geniş məlumat verib. Qeyd olunub ki, diyarımızın rəngarəng landşaftı, zəngin fauna və florası, mineral bulaqları, müalicə mərkəzləri, qədim tarixi, mədəniyyət və təbiət abidələri, ekoloji cəhətdən təmiz qida məhsulları və müasir infrastruktura malik yaşayış məntəqələri burada turizmin bir çox növünün inkişafına şərait yaradır. 200-dən çox mineral bulağı, 400-ə qədər böyük və kiçik çayı olan Naxçıvan Muxtar Respublikasında Azərbaycanın nadir fauna və florası məskunlaşıb. Ərazidə olan flora və faunanın nadir növləri Naxçıvan Muxtar Respublikasının "Qırmızı Kitabı"na daxil edilib və xüsusi mühafizəyə alınıb. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Arazboyu, Ordubad və Arpaçay Dövlət Təbiət yasaqlıqları həsabına xüsusi mühafizə olunan təbiət əraziləri muxtar respublika ərazisinin 28 faizini təşkil edir.

Naxçıvanda turizmin inkişafına göstərilən hərtərəfli qayğıdan bəhs edən Əkbər Novruzov son illər qədim diyarın tarixi-mədəni irsinin tanıdılması, müalicə mərkəzlərinin yenidən qurulması, həyata keçirilən abadlıq-quruculuq işlərinin turizmin inkişafına təkan verdiyini, muxtar respublikaya gələn turistlərin sayının ilbəil artdığını bildirib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında 2 sərhədburaxılış məntəqəsi mövcuddur. İran vətəndaşları muxtar respublikada 15 gün müddətində viza almadan qala bilərlər.

Simpoziumda İranın "Aysan Pərvaz" turizm şirkətinin direktoru Möhsün Dəsmalçi, Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının sədri Rüfət Hacıyev, İran Turizm Agentlikləri Assosiasiyasının sədri Hörmətullah Rəfii və başqaları çıxış edərək turizm əlaqələrinin inkişaf perspektivlərindən ətraflı bəhs ediblər.

Çıxışlardan sonra iki ölkə arasında turizm əlaqələrinin inkişafında xidməti olanlara mükafatlar verilib. Həmçinin muxtar respublikanın yerli istehsal məhsullarından ibarət hədiyyə paketləri və Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən hazırlanmış reklam-informasiya materialları simpozium iştirakçılarına təqdim edilib.

Sonra Azərbaycan Turizm Agentlikləri Assosiasiyası ilə İranın Turizm Agentlikləri Assosiasiyası arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb.

Simpoziumda Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının turizm potensialını əks etdirən videoçarxların nümayişi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Simpozium rəsmi ziyafətlə başa çatıb.

***Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti***

## Ali Məclisin deputatı Avropa Şurası Konqresində iştirak edib



*Fevralın 10-da Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Monitorinq Komitəsinin Fransanın Metz şəhərində keçirilən iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov iştirak etmişdir.*

İclasda Türkiyə, Ermənistan və Portuqaliyada yerli və regional demokratiyanın vəziyyəti, Avropa Yerli Özünüidarəetmə Xartiyasının üzv dövlətlərdə implementasiyası, eləcə də bəzi ölkələrdə konqresin fakt araşdırıcı missiyalarının hesabatları dinlənilmişdir. Eyni zamanda bir sıra dövlətlərdə keçirilmiş yerli və regional seçkiləri izləmiş Avropa Şurası Konqresinin müşahidə missiyalarının məlumatları, yerli və regional səviyyədə insan haqları, "Venesiya Komissiyası" ilə əməkdaşlığın imkanları müzakirə olunmuşdur. Müzakirə olunan məsələlərin konqresin bu ilin mart ayında Strasburqda keçiriləcək 38-ci Sessiyasının gündəliyinə verilməsi qərara alınmışdır.

İclasda Azərbaycanda keçirilən bələdiyyə seçkiləri ilə bağlı Ali Məclisin deputatı Anar İbrahimovun məlumatı dinlənilmiş və ölkəmizdə yerli və regional demokratiyanın vəziyyətinə dair 2020-ci ildə təşkil olunacaq monitorinq missiyasının fəaliyyətinə dair müzakirələr aparılmışdır. Monitorinq missiyasına sentyabr ayında başlanması və bu barədə Azərbaycan hökumətinin məlumatlandırılması qərara alınmışdır.

**"Şərq qapısı"**

## Ötən il bank sektorunun dayanıqlı fəaliyyəti təmin olunub

***Makroiqtisadi sabitliyin qorunması istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biri, şübhəsiz, bank sektorunun dayanıqlı fəaliyyətinin təmin olunmasıdır. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında ötən ilin yekunları da kredit qoyuluşunun artması və sahibkarların maliyyə resurslarına çıxış imkanlarının yaxşılaşdırılmasında müsbət nəticələr əldə olunduğunu təsdiq edir.***

Aparılan təhlillər göstərir ki, ötən il banklar qarşısındakı mühüm vəzifələrdən biri olan iqtisadiyyata kredit qoyuluşunda müsbət dinamika qorunub saxlanılıb. Belə ki, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən aldığımız məlumata əsasən muxtar respublikada fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 31 dekabr 2019-cu il tarixə iqtisadiyyata yönəldilən kredit qoyuluşunun həcmi 171 milyon 191 min manata çatıb. Bu kreditlərin 6 milyon 240 min manatı qısamüddətli, 164 milyon 951 min manatı isə uzunmüddətli kreditlərin payına düşür. Verilmiş kreditlərin 12 milyon 434 min manatı kənd təsərrüfatı, 10 milyon 945 min manatı sənaye, 3 milyon 703 min manatı tikinti, 6 milyon 289 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinə, 105 milyon 333 min manatı digər kommunal, sosial və istehlak kreditlərinə yönəldilib. Kredit qoyuluşuna sahələr üzrə nəzər saldıqda, 8,7 faizlə kənd təsərrüfatı, 7,6 faizlə sənaye sahələrini görə bilərik. Kənd təsərrüfatı üzrə verilmiş kreditlərə gəldikdə, burada bitkiçilik məhsulları istehsalına 1 milyon 321 min manat kredit verilib ki, bu da 2018-ci ilin yekunları ilə müqayisədə, təxminən, 2,8 dəfə çoxdur. Heyvandarlıq məhsulları istehsalını artırmaq üçün ötən il 9 milyon 983 min manata yaxın kredit verilib ki, bu da bir il əvvəlki göstərici ilə müqayisədə 2 dəfəyə yaxın artıqdır. Ümumilikdə, bu sahələrlə yanaşı, 2018-ci illə müqayisədə daha çox kredit verilmiş sahələr arasında tikinti üçün, təxminən, 5 dəfə, taxılçılıq üçün isə, təxminən, 6 dəfə çox kreditlər verildiyini deyə bilərik.



Ötən ilboyu muxtar respublika iqtisadiyyatına kredit qoyuluşunu həyata keçirən kredit təşkilatları arasında isə 83,7 faizlə özəl bankların üstünlük təşkil etdiyini görürük. Bunlardan sonrakı yerləri 12,6 faizlə dövlət bankları, 3,7 faizlə bank olmayan kredit təşkilatları tutmaqdadır.

Ötən dövr "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a uyğun olaraq muxtar respublikada fəaliyyət göstərən bank qurumlarının qeyri-nağd ödənişlərin həcminin artırılması istiqamətində gördüyü işlər də uğurlu olub. Belə ki, muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 575-i Naxçıvan şəhərində, 703-ü isə rayon və kənd mərkəzlərində olmaqla, 1278-ə çatdırılıb. Elektron ödəniş alətlərindən istifadəyə yaradılmış şərait və aparılan maarifləndirmə işləri sayəsində nağdsız ödənişlərin həcmində artım dinamikası qorunub saxlanılıb. 2019-cu ilin yanvar-dekabr aylarında POS-terminal və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi 45 milyon 550 min 608 manat təşkil edib. Nəticədə, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə, 10 milyon 457 min 258 manat artım qeydə alınıb. Nağdsız ödənişlərin 14 milyon 717 min 545 manatı POS-terminallar vasitəsilə, 30 milyon 833 min 63 manatı isə internet və digər ödəniş vasitələri üzərindən icra edilib.

Təhlil olunan dövrdə bankların əhali ilə apardığı işlərin digər bir mühüm istiqaməti olan əmanətlərin cəlb olunmasında da müəyyən işlər görülüb. Belə ki, 31 dekabr 2019-cu il tarixə muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 9 milyon 789 min manat, o cümlədən milli valyuta ilə 8 milyon 833 min, xarici valyuta ilə 956 min manat həcmində təşkil edib. Bir il əvvəlki dövrlə müqayisədə banklara qoyulan əmanətlərin həcmində milli valyuta ilə sürətlə artım, xarici valyuta ilə cəlb edilən əmanətlərin həcmində isə sürətlə azalma dinamikasının olduğunu görürük.

Təhlil olunan göstəriciləri və dünya iqtisadiyyatında baş verən proseslərlə mövsümi faktorları da nəzərə alsaq, ümumilikdə, muxtar respublikada bank sektorunda maliyyə dayanıqlılığının təmin olunduğunu qeyd etmək mümkündür. Əldə olunmuş nəticələr 2020-ci ildə də muxtar respublikada fəaliyyət göstərən bütün bank qurumları qarşısında qoyulmuş elektron ödəniş məkanının formalaşdırılması, nağd pul kütləsinin bank dövriyyəsinə cəlb edilməsi, kredit portfelinin keyfiyyətinə nəzarətin gücləndirilməsi, pul dövriyyəsinin təşkilinin daha da müasirləşdirilməsi, nağdsız hesablaşmaların miqyasının artırılması, yeni bank xidmətlərinin yaradılması kimi vəzifələrin uğurla həll olunacağını proqnoz etməyə imkan verir.

**✍ Əli CABBAROV**

Müasirləşən kəndlərimiz

# Şərait olan yerdə hər fəsil gözəldir

***Yaxın günlərdə ön xətdə yerləşən bölmələrə idarə, müəssisə və təşkilatlar tərəfindən sovqat aparan zaman yolumuz ucqar dağ və sərhəd kəndi olan Yuxarı Buzqovdan düşmüşdü. Mənfur ermənilərin ötən əsrin 90-cı illərindəki həmlələrinə qarşı mətin dayanan kənd bu gün müasirlik donundadır. Etibarlı qorunan, təhlükəsizliyi igid Azərbaycan əsgərinə əmanət edilən, turizm mövsümündə yaxından-uzaqdan gələn dosta-qonağa qucaq açan, rahat yolu, abad məktəbi ilə diqqətçəkən yurd yeridir Yuxarı Buzqov...***



Kəndin mərkəzində yeni inşa olunan tikilinin qarşısında inzibati ərazi dairəsi üzrə nümayəndə Vahid Şahverdiyevlə görüşürük.Yaşadığı kəndi, onun insanlarını, hətta ordumuzun kənddən bir neçə yüz metr aralıda yerləşən ön xətt mövqelərini də "əlinin içi" kimi tanıyır. Bir sözlə, bu yerləri tanımayıb, yolu Yuxarı Buzqova düşənlər üçün Vahid müəllim yaxşı bələdçidir. Postlarda xidmət aparan hər bir Vətən oğlunu da öz övladından seçmir. Həmişə bayram günlərində, əlamətdar tarixlərdə kənd camaatı ilə, arandan gələn qonaqlarla postlara baş çəkir, əsgərlərimizdən hal-əhval tutur və onlara ara-sıra sovqat aparırlar. Bu dəfə də ənənəsinə sadiq qalır və bizi də gedəcəyimiz yerə qədər tək buraxmır. Yolboyu söhbətləşirik. Deyir ki, o vaxt ermənilər "Yellicə", "Qara kahı", "Süst" adlandırdığımız istiqamətlərdən kəndə hücuma keçdilər. Amma Yuxarı buzqovlular, eləcə də ətraf kəndlərdən gələn eloğlularımız onları yerlərinə oturda bildilər və düşmənin kəndimizlə bağlı planları puç oldu. O vaxt silah-sursatımız az olsa da, torpağımıza, el-obamıza sonsuz sevgimiz sayəsində dədə-baba yurdumuz qorundu. Bu kənd bizə ulularımızın, əcdadlarımızın əmanətidir. Biz bu əmanəti atıb gedə bilməzdik.


Dünən


Bu gün

Yuxarı Buzqov kənd tam orta məktəbi

Ünvana çatırıq. Həmsöhbətim yaxınlıqdakı tikilini göstərib deyir: – Bu bölmə indi çox dəyişib. Məlum hadisələr dövründən buradayam və postlarımızda əvvəllər hansı şəraitin olduğunu da yaxşı bilirəm. Mərhələ-mərhələ nəinki Yuxarı Buzqovda, hətta qonşu Aşağı Buzqov və Gərməçataq kəndlərində yerləşən hərbi obyektlər də başdan-başa yeniləndi, hərbi qulluqçulara hər cür şərait yaradıldı. İndi özünüz görəcəksiniz ki, bu binadakı səliqə-sahman, məişət təminatı heç də ev şəraitindən geri qalmır.

Postlarda olduğumuz bir neçə dəqiqə ərzində biz də bu həqiqətə şahidlik edir, Vətənin keşiyində ayıq-sayıq dayanan oğullarla həmsöhbət oluruq. Geri qayıtmağa hazırlaşarkən Vahid müəllim təkidlə bizi buraxmaq istəmir, qonaqpərvərliklə evinə dəvət edir. Axşamdan yağan qar kəndin dağ-dərəsini çoxdan ağ rəngə boyayıb. Çöldə temperaturun mənfi 10 dərəcəyədək düşdüyü bir vaxtda isti evdə, süfrə arxasında kəklikotu çayını Buzqov balı ilə içməkdən ləzzətli nə ola bilər?..

Bu an insan əsl qış ab-havasına köklənir. Ətrafa göz gəzdirirəm. Artıq hər bir naxçıvanlı ailəsi üçün adi hala çevrilən daimi qaz, elektrik enerjisi, rabitə, hətta "Wi-Fi" internet şəbəkəsi burada da mövcuddur. Süfrə arxasında söhbətimiz Buzqov balı kimi şirin alınır. Vahid müəllim deyir ki, əvvəllər qış aylarında "qara günlərimiz başladı", – deyərdik. Bir tərəfdən müharibə, kəndin sərhədlərindəki işğal təhlükəsi, sabahın qeyri-müəyyənliyi, yanacaq qıtlığı bizə də çətin günlər yaşatdı. Ağır şərait insanı hər şeyə vadar edir. Doğrusu, kəndin dağ-dərəsindəki yüzillik ağacları kəsib yandıranda çox təəssüfləndik. Amma neyləmək olardı, tale belə gətirmişdi ki, yanacaq yox idi və biz mübaliğəsiz deyirəm ki, donurduq.

Heç kim xəyal edə bilməzdi ki, bir gün Yuxarı Buzqovda daimi işıq və qaz olar. Artıq bu saydıqlarım kəndimiz üçün xəyal deyil, reallığa çevrilib. Hərdən oğul-uşağa deyirəm ki, bu günün qədrini bilin. İndi isti evlərimizdə oturub yanacaq dərdi çəkmiriksə, iş otaqlarımızda rahat işləyib sabahın planlarını qururuqsa, artıq məktəblərimiz taxta-şalbanla deyil, müasir istilik sistemi ilə qızdırılırsa, biz bunu müstəqilliyimizə, vətəndaşına sonsuz dəyər verən dövlətimizə borcluyuq. Heç kimə asan gəlməsin... Naxçıvan şəhərindən 30-35 kilometr uzaqda yerləşən ucqar bir dağ kəndinə yol çəkmək, körpü salmaq, məktəb, kənd və xidmət mərkəzləri tikdirmək iqtisadi gücümüzdən, qüdrətimizdən xəbər verir. Deməli, inkişaf ən ucqar dağ və sərhəd kəndlərinə qədər gəlib çatıb. Özü də kəndimiz əlamətdar tarixdə – Babək rayonunun ulu öndər Heydər Əliyev tərəfindən təşkil olunmasının 40 illik yubileyi ərəfəsində abadlaşdırıldı, Ali Məclisin Sədri cənab Vasif Talıbovun xeyir-duası ilə istifadəyə verildi. Sizi inandırım, əvvəllər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin və digər dövlət qurumlarının yerləşdiyi binada oturmaq qış aylarında insandan, sözün həqiqi mənasında, hünər tələb edirdi. İki ildir ki, bu qayğılarımız həll olunub. Daha qış bizi qorxutmur. İndi görürəm ki, evində, işində hər cür şəraitin varsa, qış fəsli də gözəldir. Artıq qış narahatçılığa, təşvişə yox, yaratdığı mənzərələrlə böyükdən-kiçiyə hər kəsin sevincinə səbəb olur. Qurub-yaradan əllər var olsun...


Dünən

Yuxarı Buzqov kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik


Bu gün

Yuxarı Buzqov Kənd Mərkəzi

Vahid müəllim deyir ki, Yuxarı Buzqovda zəhmətə qatlaşmayan, heç bir əmək fəaliyyəti, məşğuliyyəti olmayan insan tapa bilməzsiniz. Buranın zəhmətkeş sakinləri üçün isə hər cür sosial şərait yaradılıb. Yaşlılar təqaüdlərini vaxtlı-vaxtında şəhərə üz tutmadan poçt bölməmizdən alır, ucqar kənddə çalışdığımıza görə dövlət qulluqçularına və müəllimlərə əlavə vəsait verilir, kənd təsərrüfatındakı işlərimiz də öz qaydasındadır. Yuxarı Buzqovda arıçılıq yaxşı inkişaf edib. Buna görə də Şəmsi, Vasif, Habil kimi təsərrüfatçılar 60-a yaxın arı ailəsi saxlayır. Kəndimizdə heyvandarlıq sahəsi ilə məşğul olanlar da çoxdur. Mövsüm ərzində çaşırı, baldırğanı yığıb turşusunu qoyanlar, müxtəlif mürəbbələr hazırlayanlar, hətta müxtəlif yaz otlarını yığıb qurudan ailə təsərrüfatçıları da az deyil. Onlar qışda həmin məhsulları bazara çıxarıb yaxşı gəlir götürürlər.

Artıq çay süfrəsi arxasından durmağın vaxtı çatıb. Vahid müəllim bizi qarşıladığı yerdən yola salır. Dönüb başıqarlı dağlara baxır və düşünürəm: İllərdir ki, bu yurd yerinin keşiyində dayanan insanlar möhtəşəmliyi, əzəmət və vüqarı məhz bu dağlardan alıblar...

**Muxtar RZAZADƏ**

## Muxtar respublikada keyfiyyətə nəzarət olunur



***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən yanvar ayında məhsul nümunələrinin 128, o cümlədən qida məhsullarının 124 halda keyfiyyət və təhlükəsizlik göstəricilərinin yoxlanılması təmin edilmişdir.***

Muxtar respublikaya idxal edilən uşaq qidalarının laborator analizləri aparılaraq keyfiyyət və təhlükəsizlik göstəriciləri yoxlanmış, yerli istehsal məhsullarının keyfiyyətinin qorunması məqsədilə 12 qida istehsalı müəssisəsinə, 16 ictimai iaşə və xidmət sahəsinə baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür. Eyni zamanda meyvə-tərəvəzlərdən hazırlanmış məhsulların keyfiyyətinin nəzarətdə saxlanılması məqsədilə sertifikatlaşdırma prosedurları və monitorinqlər üzrə məhsulların 53 halda standartlara uyğunluğu yoxlanılmış və nöqsan aşkar olunmamışdır.

Uşaq bağçalarının, təhsil və səhiyyə müəssisələrinin yerli məhsullarla təmin edilməsi, alınan qida məhsullarının keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılması istiqamətində 40 bufet və yeməkxanada monitorinqlər, yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici tədbirlər aparılmış, aşkar olunmuş nöqsanlar aradan qaldırılmışdır.

Yanvar ayında ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarət edilməsi üçün məhsullardan 61 halda nümunələr götürülərək analizlər aparılmış və standartlara uyğunluğu müəyyən edilmişdir. Həmçinin 58 xidmət mərkəzinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması təmin edilmişdir. İki təsərrüfat subyektində və 2 xidmət mərkəzində təmir işləri aparılmış, metroloji norma və qaydalara uyğun olaraq 814 ölçmə vasitəsi yoxlanılmışdır.

Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə 102 məişət qaz cihazına baxış keçirilmiş, təhlükəsizliyi təmin olunmayan 12 məişət qaz cihazının idxalına və satışına icazə verilməmişdir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

## Ötən ay 160 mənzil və müxtəlif təyinatlı obyekt qazlaşdırılıb

Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti tərəfindən istehlakçıların fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi məqsədilə qarşıya qoyulan vəzifələrin icrası yanvar ayında da davam etdirilmişdir. Belə ki, ötən ay muxtar respublikanın şəhər və rayonlarından daxil olan müraciətlərə əsasən 160 mənzil və müxtəlif təyinatlı obyekt qazlaşdırılmışdır ki, bunun da 129-u əhali, 31-i qeyri-əhali abonentlərdir.

Ötən ay qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsi ixtisasartırma kursuna cəlb olunmuş müdavimlərin tədrisi davam etdirilmişdir.

Qaz İstismar Xidmətinin qaynar xəttinə qaz sızması, tənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə 1160 çağırış daxil olmuş, qəza hadisələri vaxtında aradan qaldırılmışdır.

Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqaməti üzrə işlər davam etdirilmiş, 94 belə sayğac quraşdırılmışdır. Qaz cihazlarından istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə işləri aparılmış, müvafiq qurumların əməkdaşları ilə birgə reydlərin keçirilməsi davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

## Melioratorlar yaz suvarma mövsümünə hazırlaşırlar

*Muxtar respublikada yaz suvarma mövsümünü mütəşəkkil təşkil etmək üçün kanallarda, nasos stansiyalarında və digər hidrotexniki qurğularda təmir işləri aparılır, anbarlara suyun yığılması həyata keçirilir.*

Bu məqsədlə yanvar ayında 12 kilometr beton və torpaq kanal, 17 kilometr ara arxlar, 5 kilometr kollektor lildən təmizlənmiş, 9 kilometr yeni suvarma xətti çəkilmişdir. Həmçinin 49 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmış, Babək rayonunda sağ sahil magistral kanalında təmir işləri davam etdirilmişdir. Hazırda muxtar respublika ərazisindəki su anbarlarında 122 milyon kubmetr su ehtiyatı vardır.

Ötən ay torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq üçün Arpaçay və Cəhriçay vadilərində, ümumilikdə, 720 metr istiqamətləndirici bənd tikilmiş, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 700 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 8 kilometr paylayıcı boru xətti quraşdırılmış, 45 hidrant hovuzu tikilmişdir.



Əhalinin içməli su təminatını yaxşılaşdırmaq məqsədilə 2 kilometr yeni içməli su xətti çəkilmiş, 5 kəhrizdə bərpa işləri davam etdirilmişdir. Bu dövrdə 2 subartezian quyusu balansa götürülmüş, 49 subartezian quyusu təmir olunmuşdur. Eləcə də suvarma mövsümünə hazırlıqla əlaqədar təmirə ehtiyacı olan maşın-mexanizmlər, elektrik avadanlıqları təmir olunaraq saz vəziyyətə gətirilmişdir.

Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində Şərur rayonunun Cəlilkəndində 6135 metr, Babək rayonunun Nehrəm və Araz kəndlərində 6915 metr su, 3512 metr kanalizasiya xətti çəkilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

## Pakistanlı jurnalist Naxçıvandan yazdı




Pakistanın *“dailytimes.com.pk”* internet saytında “Azərbaycanı tanıyaq” sərlövhəli məqalə yerləşdirilib. Məqalənin müəllifi, “Hum news” kanalının təqdimatçı-prodüseri və müxbiri Şiffa Zakriya Naxçıvanın dini turizm məkanlarından olan “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi və Nuh Peyğəmbərin məzarüstü türbəsi ilə bağlı məlumatlar verib.

Məqalədə qeyd olunur ki, Naxçıvan Muxtar Respublikası Azərbaycanın bir hissəsidir və paytaxtı Naxçıvan şəhəridir. Bakıdan Naxçıvana quru yolları yoxdur. Əshabi-Kəhf Naxçıvan şəhərinin şərq hissəsindəki təbii mağarada yerləşir. Qədim dövrlərdən bəri Əshabi-Kəhf yeddi müqəddəs əsrlərboyu yatdığı müqəddəs yer hesab olunur. Muxtar respublika eyni zamanda turistlərin Nuh Peyğəmbərə görə ziyarət etdiyi müqəddəs məkandır. Nuhun məqbərəsi 2006-cı ildə bərpa edilmişdir. Türbənin altında daş sütun yerləşir. Nuhun məzarının bu sütunun altında olduğu ehtimal edilir. Rəssam Bəhruz Kəngərlinin 100 il əvvəl çəkdiyi və hazırda Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılan rəsm əsəri də türbənin tarixi haqqında məlumat verir.

## Ailə, qadın və uşaq hüquqları qorunur

Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması, həmçinin qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası diqqətdə saxlanılır. Yanvar ayında aztəminatlı 2 qadının müvafiq peşə kurslarına cəlb olunması, 3 qadının işlə təmin edilməsi üçün məlumatları aidiyyəti orqanlara göndərilmiş, özünüməşğulluğun təmin olunması məqsədilə sosial qayğıya ehtiyacı olan şəxslərin əl işlərinin satışı həyata keçirilmişdir.

Ötən ay “Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi” layihəsinin yekun konfransında iştirakçılar startap, gənc sahibkar, uğurlu mikrobiznes nominasiyaları üzrə mükafatlandırılmış, təlimçi sertifikatlarının təqdimatı olmuşdur. Həmçinin konfransda layihə iştirakçısı olan qadınların hazırladıqları 1600-dən çox əl işi və istehsal məhsullarından ibarət sahibkarlıq sərgisi nümayiş olunmuş və satışı həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 323 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir. Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı 4 uşaq məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə göndərilmiş, müvafiq kateqoriyadan olan 70 uşaq üçün Naxçıvan Dövlət Film Fondu tərəfindən “Buta” filmi nümayiş olunmuşdur.

“Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”na uyğun olaraq 2019-cu il üçün uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair illik hesabat hazırlanmış, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın iclası keçirilmiş və iş planı təsdiq olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Şahmat üzrə interaktiv dərs keçilib





*İntellektual idman növü kimi şahmatın inkişafına muxtar respublikamızda ciddi diqqət yetirilir. Bu məqsədlə şəhər və rayonlarda şahmat məktəbləri tikilərək istifadəyə verilib, həmin məktəblərin maddi-texniki bazası gücləndirilib. Eyni zamanda müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş şahmat məktəblərində interaktiv dərslərin təşkili üçün hər cür şərait yaradılıb.*

Ümumtəhsil məktəblərində şahmat dərslərinin tədrisi səviyyəsinin artırılması, uşaq-gənclər şahmat məktəblərinin fəaliyyətlərinin gücləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Təhsil Nazirliyi Şahmat Federasiyası ilə birlikdə mütəmadi olaraq şahmat məşğələləri də təşkil edir.

Həmin tədbirlərin davamı olaraq dünən Naxçıvan Şahmat Mərkəzində “Açıq debütlər, İspan oyununun izahlı təhlili” mövzusunda növbəti interaktiv dərs keçilib. Dərsi beynəlxalq dərəcəli hakim Emin Hacıyev aparıb. Qeyd olunub ki, debütlərin 3 növü var: açıq, yarımaçıq, qapalı. İspan oyunu açıq debütlərə aiddir. 1.e2-e4; e7-e5 gedişləri ilə başlayır. Bu oyun haqqında ilk məlumata ispaniyalı şahmatçılar Lüsyenin və Lopesin əsərlərində rast gəlinir.

İnteraktiv şahmat məşğələsi saat $11^{00}$da ümumtəhsil məktəblərinin şagirdləri üçün, $12^{00}$da isə ümumtəhsil məktəblərində Şahmat fənnini tədris edən müəllimlər üçün keçilib. Bununla yanaşı, saat $15^{00}$da isə rayon şahmat məktəbləri üçün təşkil olunan interaktiv dərsdə muxtar respublika şahmatçılarının oyunları təhlil edilib.

İnteraktiv dərs 200-dən artıq təhsil müəssisəsində şagird və müəllimlər tərəfindən, şahmat məktəblərində isə 200-dən çox şahmatçı tərəfindən elektron lövhə vasitəsilə izlənilib. Dərs zamanı şahmatçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Daha bir sağlamlıq imkanları məhdud uşaq distant tədrisə cəlb olunub



Muxtar respublikada həyata keçirilən kompleks sosial müdafiə tədbirləri sağlamlıq imkanları məhdud uşaqları da əhatə edir. Onların hərtərəfli inkişafına göstərilən diqqət və qayğı, müvafiq kateqoriyadan olan uşaqların yaradılan şəraitdən səmərəli istifadə etmələri, cəmiyyətə inteqrasiyaları üçün əlverişli mühit yaradıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası bu baxımdan mühüm əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrası istiqamətində tədbirlər davam etdirilir. Bu məqsədlə sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant təhsil mühitinin yaradılması istiqamətində aidiyyəti dövlət orqanları ilə birgə məktəbəqədər, məktəb və məktəbdənkənar təhsil müəssisələrində monitorinqlər aparılır, sağlamlıq imkanları məhdud uşaqların distant tədrisə cəlbi davam etdirilir.

Bu tədbirlərin davamı olaraq, bu günlərdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Rabitə və Yeni Texnologiyalar nazirliklərinin birgə təşkilatçılığı ilə daha bir sağlamlıq imkanları məhdud uşaq – Elnar Həsənov distant tədrisə cəlb edilib. O, zəruri dərs ləvazimatları, tədris vəsaitləri, məktəbli geyimi ilə təmin olunub, ona tədris prosesinin gedişinə uyğun müvafiq təlimatlar verilib. Elnarın valideynləri yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Dünən Naxçıvan Müəllimlər İnstitutunda tədris planlarına uyğun olaraq İbtidai sinif müəllimliyi, Riyaziyyat və informatika müəllimliyi və Məktəbəqədər təlim və tərbiyə ixtisaslarının pedaqoji təcrübəsinin başlanğıc konfransı keçirilib.***

## Pedaqoji təcrübəyə start verilib



Konfransda institutun professor-müəllim heyəti, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşları, ümumtəhsil məktəblərinin direktorları və pedaqoji təcrübəyə başlayacaq tələbələr iştirak ediblər.

İnstitutun rektoru Azad Novruzov konfransı açaraq qeyd edib ki, ixtisaslar üzrə tədris planına uyğun olaraq İbtidai sinif müəllimliyi, Məktəbəqədər təlim və tərbiyə ixtisaslarında təhsil alan tələbələr IV tədris ilinin VIII semestri, Riyaziyyat və informatika müəllimliyi ixtisasında təhsil alan tələbələr V tədris ilinin X semestrində 14 həftəlik pedaqoji təcrübə keçəcəklər. Bu ixtisaslar üzrə 218 tələbə Naxçıvan şəhər məktəbləri və məktəbəqədər təhsil müəssisələrində olacaqlar.

Vurğulanıb ki, tələbələrin müəllimlik fəaliyyətinə hazırlanmasında pedaqoji təcrübə mühüm əhəmiyyət kəsb edir. Onlarda ixtisaslar üzrə qazanılan nəzəri bilikləri tətbiq etmək bacarığının və müəllimə xas olan keyfiyyətlərin formalaşdırılması pedaqoji təcrübə vasitəsilə həyata keçirilir. Bu prosesdə tələbələr gələcək peşə fəaliyyətləri üçün zəruri olan bacarıq və vərdişlər əldə edirlər. Pedaqoji təcrübənin nəticəsi bir sıra amillərlə yanaşı, ilk növbədə, bu prosesin necə təşkil olunmasından, maraqlı tərəflərin və tələbələrin məsuliyyətindən asılıdır.

Sonda Azad Novruzov pedaqoji heyətə və tələbələrə uğurlar arzu edib.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov müəllim kadrlarının hazırlanması üçün muxtar respublikada görülən işlərdən danışıb. Nazir pedaqoji ixtisaslarla hamilik çərçivəsində aparılan məqsədyönlü işlərin əhəmiyyətinə toxunaraq pedaqoji təcrübənin yüksək səviyyədə təşkili üçün qarşıda duran vəzifələrdən bəhs edib, müəllim və tələbələrə uğurlar arzulayıb.

Nazir məktəblərdə təcrübə müddəti ərzində yerinə yetiriləcək işlərlə bağlı məktəb direktorlarına aidiyyəti üzrə tapşırıqlar verib.

Sonra institutun təcrübə rəhbəri Təranə Əliyeva, dekanlardan Arif Ağalarov və Rövşən Vəliyev çıxış ediblər.

Sonda Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin ali təhsil ocağına hədiyyə etdiyi dərslik və metodik vəsaitlər təqdim olunub.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

## Növbəti taktiki-xüsusi təlim



*“Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı”na əsasən “Şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması” mövzusunda taktiki-xüsusi təlim keçirilib.*

Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin xilasedici bölmələrinin cəlb edildiyi təlim şəxsi heyətin şiddətli soyuqlarda döyüş tapşırıqlarını yerinə yetirmə bacarıqlarının və həyatda qalma vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilib.

Təlimdə xüsusi təyinatlı qruplar qarlı-şaxtalı havalarda, gündüz və gecə şəraitində şərti düşmən arxasında taktiki fəaliyyətləri icra ediblər. Bu zaman qarlı ərazilərdə şəraitə uyğun maskalanmış snayper cütlükləri şərti tapşırıqları yerinə yetiriblər.

Qarlı-şaxtalı, çovğunlu havalar və çətin keçilə bilən ərazilər üçün nəzərdə tutulmuş təchizat, müxtəlif dağ ləvazimatları, döyüş vasitələri və ərzaqla təmin edilmiş hərbi qulluqçular təlim rayonunda hazırladıqları sığınacaqlarda yaşayıb, gecələyiblər.

Taktiki-xüsusi təlimdə şiddətli soyuqlarda qar uçqununa məruz qalmış və qarlı ərazilərdə itmiş şəxslərin axtarılıb tapılması, ilkin tibbi yardımın göstərilməsi və təxliyəsi məşq etdirilib. Beynəlxalq xilasetmə kurslarında təcrübə qazanmış xilasedicilərin də cəlb edildiyi təlimdə qar uçqunları zamanı istifadə olunan xüsusi təyinatlı “Biper” aparatı və şuplar vasitəsilə axtarış-xilasetmə və digər təxirəsalınmaz tədbirlər həyata keçirilib.

Dağlarda döyüş əməliyyatları aparan zaman ərazinin xüsusiyyətlərindən bacarıqla istifadə edərək yaralıların təxliyəsi qaydalarını, praktik döyüşü mükəmməl mənimsəmiş xüsusi təyinatlı və xilasedici bölmələr təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olublar.

**Nəriman NƏCƏFOV**

## “Kitabxanalar və gənclik” mövzusunda konfrans

*AMEA Naxçıvan Bölməsinin Elmi kitabxanası Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası ilə birgə “Kitabxanalar və gənclik” mövzusunda konfrans keçirib.*

Tədbiri kitabxananın direktoru Təmella Əsgərova açaraq ölkəmizin gələcəyi olan gənclərin hərtərəfli inkişafında həyata keçirilən tədbirlərdən və qarşıda duran vəzifələrdən danışıb. O, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətinin bu gün Naxçıvanda da uğurla həyata keçirildiyini bildirib. Vurğulayıb ki, bu gün gənclərin kitabxanalara cəlb olunmasına, mütaliə mədəniyyətinin formalaşmasına xidmət edən hər cür şəraitə malik zəngin ənənəvi və elektron kitabxanalar yaradılıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Oxunması zəruri olan kitablar haqqında” 2017-ci il 28 avqust tarixli Sərəncamı gənclərin mütaliə mədəniyyətinin inkişafında, kitabların daha geniş təbliğində mühüm rol oynayır.

AMEA Naxçıvan Bölməsinin Elmi kitabxanasının direktoru Sahab Əliyeva “Gənc nəslin formalaşmasında kitabxanaların rolu” mövzusunda çıxış edərək gənc nəsildə mütaliəyə marağın artırılması baxımından kitabxanaların üzərinə düşən vəzifələrdən söz açıb. Bildirib ki, yaradılan şəraitin və kitabxana fondlarının zəngin olmasının nəticəsidir ki, mütaliəyə maraq əvvəlki illərlə müqayisədə nəzərəçarpacaq dərəcədə artıb.

Sonra çıxışlar dinlənilib.

***AMEA Naxçıvan Bölməsinin İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi***

*Ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra ölkədə idmana münasibət də kökündən dəyişdi, bu sahənin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi, Azərbaycanın həm də bir idman ölkəsi kimi beynəlxalq aləmdə tanınması, olimpiya hərəkatına qoşulması geniş vüsət aldı. Qısa zaman kəsiyində həyata keçirilən mühüm tədbirlər nəticəsində idmançılarımız böyük qələbələrə imza atdılar. Ölkənin bütün regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafı zəruri məsələlərdən birinə çevrildi.*

# Muxtar respublika idmanına daha bir töhfə

## Dövlət proqramı Naxçıvanda bu sahənin inkişafına yeni nəfəs verəcək

### *Dayanıqlı xarakter alan idmanımız – uğurlarımız*

Artıq muxtar respublikada idmanın inkişafı dayanıqlı xarakter alıb. Bu gün diyarımızda bu sahənin kütləviliyi təmin edilir, idmanla məşğul olmaq istəyən gənclərin sayı günbəgün artır, görülən işlər gəncləri də həvəsləndirir. Muxtar respublikada aparılan uğurlu idman siyasəti – müasir infrastrukturun yaradılması, istedadlı idmançılara stimul verilməsi, onların ölkəmizi beynəlxalq müstəvidə layiqincə təmsil etmələrinə şərait yaradılması diyarımızın idman karyerasının yüksəldilməsi ilə yanaşı, gənclərin inkişafına, ölkənin, muxtar respublikamızın təbliğinə də öz dəstəyini verir.

Ötən il Gənclər və İdman Nazirliyinin xətti ilə 5-i beynəlxalq, 1-i ölkə səviyyəli olmaqla, ümumilikdə, muxtar respublikamızda 386 tədbir reallaşdırılıb. Xaricdən gələn idmançılar burada keçirilən beynəlxalq yarışlara qatılıb, naxçıvanlı idmançılar isə başqa ölkələrdə beynəlxalq turnirlərdə iştirak ediblər. Muxtar respublika idmançıları 2019-cu ildə dünya çempionatlarında 5, Avropa çempionatlarında 20, beynəlxalq turnirlərdə 165, Azərbaycan birinciliklərində 179 olmaqla, ümumilikdə, 369 medal qazanıblar. Müqayisə üçün qeyd edək ki, 2018-ci ildə idmançılarımız respublika səviyyəli yarışlarda 105, beynəlxalq miqyaslı turnirlərdə 84, dünya səviyyəli yarışlarda 2, Avropa çempionatlarında 3, Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında 1 olmaqla, ümumilikdə, 195 medala sahib olublar. Bütün bunlar onu deməyə əsas verir ki, onlar ölkəmizin, muxtar respublikanın idman ənənələrini beynəlxalq yarışlarda ləyaqətlə təmsil ediblər.

Qazanılan nailiyyətlər həm də onu göstərir ki, idmançılarımız nəinki fiziki, eyni zamanda intellektual cəhətdən də böyük potensiala malikdirlər. Cari ildə də onlar idman turizminin inkişafına öz töhfəsini verəcək, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş Beynəlxalq Şahmat Festivalının, cüdo üzrə Beynəlxalq turnirin, karate üzrə Dünya Kubokunun, 16 yaşadək şahmatçılar arasında Ümumdünya Şahmat Olimpiadasının, futbol üzrə "Heydər Əliyev Kuboku" turnirinin və bir sıra yoldaşlıq görüşlərinin iştirakçıları olacaqlar.





Muxtar respublikamızda cəmiyyətin böyük bir hissəsinin maraqlarını özündə birləşdirən idman idarəetmə sistemi təkmilləşdirilərək müəyyən qurumlarla əməkdaşlığa başlanılıb ki, bu da idmanın imkanlarından daha səmərəli istifadə etmək istəyənlər üçün geniş imkanlar açıb. Bu sahədə görülən ən mühüm iş isə kəndlərdə də idmanın inkişafına diqqətin artırılmasıdır. Belə ki, yeni inşa edilən məktəb binalarında idman zallarının olması ucqar kəndlərdə yaşayan uşaq, yeniyetmə və gənclərin bu sahəyə axınını xeyli sürətləndirib. İndi həmin kəndlərdə yaşayan uşaq və yeniyetmələr keçirilən rayon, şəhər və muxtar respublika birinciliklərində qüvvələrini sınayır, hətta muxtar respublikanı ölkə və beynəlxalq yarışlarda təmsil edirlər. Bu göstərici idmanın kütləviliyinin diyarımızda pik nöqtədə olduğunun əyani sübutudur. Ümumiyyətlə, dünyanın Şərqə açılan qapısı Naxçıvanda keçirilən müxtəlif tədbirlər muxtar respublikamızın bu sahədəki beynəlxalq mövqeyini də gücləndirib. Burada idman siyasəti artıq beynəlxalq müstəvidə bir modelə çevrilib. Bu faktı diyarımıza səfər etmiş dünyanın tanınmış idmançılarından da tez-tez eşidirik.



### *Keçirilən müşavirələrin müsbət nəticələri*

Muxtar respublikamızda digər sahələr kimi, idman sektoru da böyük inkişaf dövrünü yaşayır. Son illər iqtisadiyyatımızın daha da güclənməsi, möhkəm dayaqlara əsaslanması idmanın da inkişafında həlledici rol oynayıb. Naxçıvanda idmanın inkişaf strategiyasının növbəti hədəflərinin, mövcud nöqsanların və onların aradan qaldırılması ilə bağlı qarşıda duran vəzifələrin müəyyənləşdirilməsində Ali Məclisdə keçirilən ənənəvi müşavirələrin də mühüm rolu vardır. 2018-ci il dekabrın 10-da "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirədə Ali Məclisin Sədri cənab Vasif Talıbov idman növlərinin inkişaf etdirilməsi, gənclərin idmana cəlbi, yarışların kütləviliyinin artırılması, müxtəlif muxtar respublika birinciliklərinin keçirilməsi, Azərbaycanın iştirak etdiyi beynəlxalq yarışlarda muxtar respublika idmançılarının da iştirakının təmin edilməsi ilə bağlı bir sıra mühüm tapşırıqlar vermişdi. Müşavirədə idman federasiyalarının da fəaliyyətlərində ciddi dönüş yaratmaları ilə bağlı verilən tapşırığa əsasən Şahmat, Futbol, Paralimpiya, Atıcılıq federasiyalarında struktur dəyişiklikləri Azərbaycan, dünya və Avropa birinciliklərində, beynəlxalq turnirlərdə Şahmat, Güləş, Karate-do, Boks, Futbol, Kikboksinq, Yüngül Atletika və Paralimpiya federasiyaları idmançılarının böyük uğurlara imza atması ilə nəticələnib.

Cari il fevralın 1-də "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirədə Ali Məclisin Sədri qeyd edib ki, hazırda muxtar respublikada 58 idman müəssisəsi və 886 idman obyekti fəaliyyət göstərir. İdmanın tədrisi və gənclərin fiziki hazırlığı ilə 812 müəllim məşğul olur. Uşaq və gənclərin idmana cəlbi istiqamətində həyata keçirilən kompleks tədbirlər nəticəsində muxtar respublikada idman tədbirləri beynəlxalq xarakter alır. Müasir idman infrastrukturu və bu sahəyə göstərilən qayğının nəticəsidir ki, 2019-cu ildə muxtar respublikada 1 ölkə və 5 beynəlxalq səviyyəli idman tədbiri keçirilib.

Ali Məclisin Sədri vurğulayıb ki, qazanılan nailiyyətlərlə kifayətlənməməli, muxtar respublikada idman sahəsində həyata keçirilən tədbirlər 2020-ci ildə də davam etdirilməlidir. Muxtar respublika rəhbəri Gənclər və İdman Nazirliyinə, idman federasiyalarına idman növlərinin inkişaf etdirilməsi, uşaq və gənclərin idmana cəlbi, yarışların kütləviliyinin artırılması, Hava və Ekstremal İdman Növləri, Voleybol və Basketbol federasiyalarının fəaliyyətində dönüş yaradılması məqsədilə mühüm tapşırıq və tövsiyələr verib.

Göründüyü kimi, keçirilən müşavirələrdə idman ənənələrinin qorunub saxlanılması, yaradılan infrastrukturdan səmərəli istifadə olunması, yeni idmançı nəslinin yetişdirilməsi əsas prioritet kimi qəbul edilib və bu sahələrdə müvafiq idman tədbirlərinin həyata keçiriləcəyi nəzərdə tutulub. Müşavirədən sonra qısa zamanda muxtar respublikada idmanın davamlı inkişafını təmin etmək məqsədilə atılan ilk mühüm addım isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi oldu.



### *İdmanın inkişafına dair dövlət proqramı və qarşıya qoyulan prioritet vəzifələr*

Dövlət proqramının məqsədi əhalidə sağlam həyat tərzinin formalaşdırılması, uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter almasının təmin edilməsi, istedadlı idmançıların üzə çıxarılması, bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı maddi-texniki bazanın müasirləşdirilməsi və gücləndirilməsi, idmanın bütün növlərinin inkişafına şəraitin yaradılmasıdır.

Bu mühüm dövlət sənədinin başlıca strateji hədəfi mövcud imkanları, resursları nəzərə almaqla muxtar respublikada idman siyasətinin məqsədyönlü davamı, idman strukturunun tam şəkildə təmin olunması və idmançılarımızın vətəndaş kimi cəmiyyətin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır. Muxtar respublikamızda insanların bu sahə ilə məşğul olmaları, sağlamlıqlarının qorunması üçün hərtərəfli şərait yaradılıb, davamlı olaraq idman strukturunun təkmilləşdirilməsi tədbirləri həyata keçirilir. Olimpiya və qeyri-olimpiya növlərinin kütləvi hal alması, şaxələndirilməsi, inkişaf etdirilməsi və idman infrastrukturunun təkmilləşdirilməsi prioritet istiqamət kimi qəbul olunub.



Hazırkı mərhələdə qarşıda duran əsas vəzifə idmanın kütləviliyini rayon və kəndlərdə artırmaq, yüksək inkişaf tempini gələcək illərdə də qorumaq, rəqabətqabiliyyətlilik imkanlarını genişləndirməkdən ibarətdir. Həmin məqsədlərə çatmaq üçün bütün imkanlardan tam şəkildə istifadə etmək, mövcud idman infrastrukturundan səmərəli yararlanmaq və bu potensialın gücləndirilməsinə şərait yaratmaq vacib şərtdir.

Dövlət proqramında idmanın inkişafı üçün bu sahədə kadr siyasətinin təkmilləşdirilməsi, Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində kadr hazırlığının gücləndirilməsi nəzərdə tutulur, idmanın tədrisinin səviyyəsinin yüksəldilməsi, pedaqoji kadr hazırlığının təkmilləşdirilməsi, tədrisin ixtisaslı müəllimlər tərəfindən aparılması, idmanın müxtəlif sahələri üzrə şagird və tələbələrin idmana cəlb olunması və digər tədbirlərin də həyata keçirilməsi planlaşdırılır. Məhz bu amillər nəticəsində ali və orta ixtisas təhsili müəssisələrində idman sahəsi üzrə aparılan işlər genişləndiriləcək. Eyni zamanda bu proqram təhsil müəssisələrində bədən tərbiyəsi dərslərinin saatlarının artırılması və yeni metodik vəsaitlərin işlənib hazırlanmasına da imkanlar açacaq.

Dövlət proqramı idman sahəsindəki hədəfləri müəyyən edir və bu hədəflərə çatmaq üçün tərəfdaşlıq şəraitində işləməyin yeni yollarını axtarır. Əsas hədəf yaşından və sağlamlıq vəziyyətindən asılı olmayaraq, hər kəsin idman fəaliyyəti dairəsinin genişləndirilməsi məsələsini həll etmək, klubların, məşqçilərin və könüllülərin dinamik şəbəkəsini yaratmaq və formalaşdırmaqdır.

İdmanın kütləviliyini təmin etmək əsas məsələdir. Uşaq və yeniyetmələrin mənəvi-fiziki inkişafı üçün idman sahəsində qarşılıqlı fəaliyyət planlarının hazırlanması, federasiya, klub və digər ictimai birliklərin ölkə və beynəlxalq səviyyəli yarışlarda iştirakının təmin edilməsi, bütün təhsil müəssisələrində idman klublarının yaradılması, idman yarışları və spartakiadaların təşkil edilməsi vacibdir.

Təbii ki, qızların da idmana cəlbini unutmaq olmaz. Bu gün muxtar respublikamızda qızların idmanla məşğul olmaq imkanlarının artırılması ilə onların özünəinam hisslərini yüksəltmək üçün bütün mümkün imkanlar yaradılıb. Tarix sübut edib ki, Naxçıvanda zərif cinsin nümayəndələrinin oğlanlarla bərabər idman fəaliyyətinə cəlb edilməsi gender bərabərliyinin təmin olunmasının mühüm göstəricisi hesab edilməlidir. Etiraf edək ki, qızların idmanla məşğul olmaları gələcəkdə onların ailələrində tərbiyə olunacaq uşaqların da idman məşğələlərinə cəlb edilməsinə əhəmiyyətli təsir göstərəcək. Ümumiyyətlə, idman sahəsi qadınların əmək məşğulluğu üçün geniş imkanlar açır. Qadınların peşəkar idman fəaliyyəti ilə məşğul olmaları insan iradəsinin bəzən fizioloji xüsusiyyətləri belə, aşmağa qadir olduğunu bir daha sübut edir.



Bu gün muxtar respublikada fiziki imkanları məhdud şəxslərin sağlamlığının möhkəmləndirilməsi, onların cəmiyyətə inteqrasiyası baxımından idman mühüm əhəmiyyət daşıyır. Məhdud fiziki imkanlı şəxslərin idman həyatına inteqrasiyası, onlar arasından istedadlı idmançıların aşkara çıxarılması məqsədilə çoxsaylı tədbirlər həyata keçirilir. Məhz bunun nəticəsidir ki, Naxçıvanda sağlamlıq imkanları məhdud idmançıların məşq etmələri üçün boccia, stolüstü tennis, qolbol, üzgüçülük və ağırlıqqaldırma bölmələri fəaliyyət göstərir. Dövlət proqramında isə belə şəxslərin idman vasitəsilə reabilitasiyası üçün maarifləndirici tədbirlərin də həyata keçirilməsi nəzərdə tutulur.

Heç şübhəsiz ki, yeni dövlət proqramı idmanın inkişafında yeni mərhələnin əsasını qoyacaq, idman hərəkatının idarə olunması prosesini təkmilləşdirəcək, bu sahə üzrə qurumların sayı artırılacaqdır. Həmçinin bu sahəyə investisiya qoyuluşuna özəl təşkilatların daha çox cəlb edilməsi, sponsorluq fəaliyyətinin genişləndirilməsi, bədən tərbiyəsi və idman sahəsində investisiya mühitinin yaradılması, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, pullu xidmət növlərinin inkişaf etdirilməsinə də zəmin yaradacaq. Bu isə muxtar respublika iqtisadiyyatının və turizm potensialının artmasına da öz müsbət təsirini qısa vaxt ərzində göstərəcək.

**Ceyhun MƏMMƏDOV**

*Məqalə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi yaradıcılıq müsabiqəsinə təqdim edilir.*

### *İtmişdir*

Naxçıvan şəhəri, "Çənlibel" məhəlləsi bina 6, mənzil 29-da yaşayan Bağırov Murtuz Əkbər oğlunun adına verilmiş MH-0037005 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 171